# "ƏSGƏR ANASI" POVESTİ

**İyirminci əsrin son on illiyi tarixə təlatümlər və ixtişaşlar dövrü kimi daxil olub. Dünyada baş verən bu ixtişaşlar Azərbaycan xalqından da yan keçmədi. Əsrin sonunda yaşanılan faciələr siyahısında "Qarabağ" səlnaməsi də önəmli yer tutdu. Hər zaman kəsiyində olduğu kimi faciələrimiz, müsibətlərimiz dözülməz oldu. Torpaqlarımız yenidən erməni faşistlərinə pay verildi. Yaşadığımız müsibətlər, haqsızlıqlar, eyni zamanda içimizdəki s apı özümüzdən olan baltaların vicdansızlıqları müasir ədəbiyyatımızda əks olunur. (Düzdür bəzi ziyalılarımız ədəbiyyatımızın yuxarıda adı gedən mövzuya münasibət bildirmədiyini vurğulasalar da onu da qeyd etmək lazımdır ki, Qarabağ mövzuları ədəbiyyatımızda əks olunur). Qarabağ mövzuları 20 Yanvar hadisələrindən üzü bəri yaranmağa və inkişaf etməyə başladı. Hətta digər mövzulu əsərlərdə belə məlum məsələlərə münasibət bildirilir. İlk illər publisistika və poeziya janrı nə qədər fəal idisə, son beş ildə Azərbaycan ədəbiyyatında nəşr janrı bir o qədər sürətlə inkişaf edir. Bu gün Azərbaycan ədəbiyyatında kiçik həcmli hekayə janrında qiymətli, təsirli nümunələr yaranmaqdadır.**

Hələ "Kürdəmir şəhidləri" əsərindən bizə yaxşı tanış olan Əlisəfa Azayevin "Əsgər anası" povesti də özünəməxsusluğu ilə seçilir və çox böyük bədii -estetik təsir gücünə malikdir.

"Kürdəmir şəhidləri" kitabında müəllifin dəqiq müşahidə qabiliyyəti hiss edilirdi. "Əsgər anası" povesti də Qarabağ savaşını, buradakı ibrətli reallıqları əks etdirir. Əsərdə arxada çalışan, ön cəbhədə döyüşən, dünya görüşləri başqa-başqa olan insanların duyğu və düşüncələrini vətəndaşlıq mövqeyindən diqqət mərkəzinə çəkən müəllif oxucularına çox hadisələri göstərir. Əsərin təsir gücü ondadır ki, müəllifin müşahidə qabiliyyəti hədsiz dərəcədə güclüdür. Müəllif müşahidə elədiyi kiçik bir hadisənin sonunu əvvəlcədən görür və dərk edir. Əsərin təsir gücünü artıran cəhətlərdən biri də Əlisəfa Azayev müşahidələrini əsərdə müəllifin simasında deyil, həyatın reallıqlarında görən və yaşayan, müdrik ana obrazı ilə əks etdirməsidir. Müharibənin dəhşətlərini ana hər kəsdən artıq yaşayır. Əsərdə ana hər kəsdən çox itki verib. Ana torpağını itirib, ana özünə dayaq olan ər itirib, o iki qız övladını mərmi partladığı zaman itirib. Ana yalnız öz doğma torpağı üçün itki verməyib, o, eyni zamanda Əfqanıstanda da əziz oğlunu itirib.

Əsərdə əsas obraz əsgər anası Mələk və onun qəhrəman oğlu Elnurdur. Müharibə mövzularını bir çoxunda əsas obyekt ana və oğuldur. Ancaq bu əsərdəki obrazlar daha güclüdür və eyni zamanda fərqlidir. Bu fərq nədən ibarətdir? Burada müəllif hadisələri, mənzərələri, obrazları bəzəmir, necə varsa eləcə oxucuya çatdırır. Özü hadisələrə, insanlara münasibət bildirmir. Oxucu hadisələrə, onlara, əsərdəki qəhrəmanlara təkbaşına münasibət bildirir, qərarı özü verir, məsələn, Mələk ana. bu qadın dünyaya çox övlad gətirib. Bu övladların hərəsi bir düşüncəyə, dünya görüşünə malikdir. Müəllif ananın bütün övladlarını bir biçimdə əks etdirmir. Onlar da bu xalqın övladlarıdırlar.




Onların hərəsinin özünəməxsus xüsusiyyətləri var. Ananın evinə mərmi düşüb iki qızı və əri Abdulla həlak olub. Digər övladları uzaq şəhərlərdə - Şərqdə, Riqada, Moskvada yaşayırlar. Bir oğlu Əfqanıstanda şəhid olub. Axırıncı - Elnursa Vətəni - Azərbaycanı qorumaq üçün cəbhəyə gedib. Müəllif istər ön cəbhədəkilərin, istərsə də arxa cəbhədəkilərin yaşantılarını təbii bir reallıqla əks etdirir. Arxa cəbhədəkilər ön cəbhədən xəbərsiz deyillər. Ancaq buna baxmayaraq hərə bir cür düşünür. Hətta bəziləri hadisələri adi qəbul edərək birtəhər bu hadisələrdən uzuqlaşmağa "yaşamağa" çalışır. Mələk ana isə hadisələri nəinki qəbul etmək istəmir, hətta yaşına baxmayaraq müharibə meydanına atılır. Onun mübarizə meydanına atılması yazıçıya şərait yaradır ki, cəbhə ölgəsindəki yaşantıları tam real şəkildə oxucusuna çatdırsın. Elə ön cəbhədə insan xarakterləri müxtəlifdir və müxtəlifliyin içərisində müəllif qüsurlarımızı, faciələrimizi Mələk ana vasitəsi ilə daha qabarıq əks etdirir. Mələk ana "sapı özümüzdən olan baltalar"ı burada da görür və əsas odur ki, onlara qarşı mübarizəyə qalxır. Hələ kəndlərimiz ermənilər tərəfindən alınmazdan əvvəl özümüzün qana susayanlarımız kənddən qiymətli tikinti materiallarını daşıyıb, ev-eşikləri qarət edirlər. Mələk ana bunlara göz yuma bilmir və onları söz atəşinə tutur:

"Utanım yerinizə, adam da dədə-baba mülkünü dağıdarmı? Səhər onun sahibinin üzünə necə baxacaqsınız? Sizdə bir kişilik var, ya yox? Bundansa gedin başınıza ləçək bağlayın" (səh. 54).

Mələk ana yaşadığımız faciələri görüb dəhşətə gəlir. Gah erməni vəhşilərinə, gah da içimizdəki xəyanətkarlara, vətən xainlərinə qarşı üsyan edir. Mələk ana üsyankarlığı ilə bərabər ədalətsevərdir. O, haqq uğrunda canını belə verər. Mələk ananın rastlaşdığı haqsızlıq bəzən onu cəbhədən getmək dərəcəsinə çatdırsa da, o, bunu edə bilmir. Üst-başı çirk içərisində rolan əsgər balaları qoyub qaçmaq ona ağır gəlir. Bir işin belə qulpundan tutub cəbhədə olmağı üstün bilir. Eyni zamanda, o, aylardı bu bölgədə olaraq oğlu Elnurun gəlməsini gözləyir.

Müəllif oxucusunu cəbhə bölgələrinin hər tərfi ilə tanış edir, oxucusunun əlindən tutub Ağdər Kəlbəcər, Tərtər və s. cəbhə bölgələrini gəzdirir və onlara döyüş bölgələrindəki bütün reallıqları göstərir. Müəllif hətta xırda hadisələri belə kənarda qoymur. Davanın hər üzü haqqında məlumat verir.

Əsərdə Elnur da fərqli obrazdır. O tay-tuşlarından düşüncə tərzinə görə fərqlənir. Elnurun vətənpərvərliyi, həiqətpərəstliyi, mübarizliyi ona düşmən qazandırır. Bir daha şahid oluruq ki, davaya hər kəs torpaqlarımızı qorumaq üçün gəlməyib, onların içərisində öz mənafelərini hər şeydən üstün tutanlar da var və beləəri Elnur kimi güclü tankçı döyüşçüləri məhv etmək üçün fürsət axtarırlar. Elnur dəfələrlə yaralanmasına baxmayaraq döyüşdən kənarlaşmır. Hətta döyüş zamanı öndə tək qalanda belə arxaya dönmür. Müəllif Elnurun əsil döyüşçü simasını əks etdirmək üçün "Drambon əməliyyatı" adlanan fəsil daha qabarıq bir şəkildə verir. Fəsildə düşmən qarşısından qaçan əsgərlər Elnuru öndə tək qoyurlar. Son anda gülləsinin azaldığını görən Elnur erməni ilə üz-üzə olduğunu dərk etsə də belə qaçmır. Elə bu zaman sevdiyi tibb işçisi, şəhid bacısı Pərvanə ona köməyə gəlir. Onlar döyüşərkən mühasirəyə düşürlər, sonra bir mağarada sığınacaq tapırlar.

Müəllif qəhrəmanla sevgilsinin bir neçə gün tənha qalmalarını səbəbsiz göstərmir. Əsərin qəhrəmanı içimizdəki düşmənlər tərəfindən arxadan vurulur. Müəllif belə bir azərbaycanlı oğlunun davamının olmamasını istəmir. Elnurun ölümündən sonra Pərvanə və onun dünyaya gələn övladı Elnurun anasını tək qoymurlar və Elnurun övladı onun nəslinin davamçısı olur. Bu isə yalnız Elnurun deyil, bütün torpaq uğrunda şəhid olmuş oğullarımızın davamçıları olmasına işarədir.

**Ümumiyyətlə, povest yaşadığımız faciələrin mənzərəsidir. Demək olar ki, əsər müharibə mövzusunda yazılmış, davanın canlı yaşantılarını əks etdirən salnamə kimi qiymətlidir.**

**MƏRZİYYƏ NƏCƏFOVA**



ədalət.-2018.-19 oktyabr.-S.10.